

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 116 (24.003)

23 iyun 2022-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Özbəkistanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Daşkənddən Ürgənc şəhərinə yola düşüb. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı İslam Kərimov adına Daşkənd Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

İyunun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Xivə şəhərində "Nurullaboy" saray kompleksi ilə tanış olublar. Həmin gün buradakı İçan-Qala Dövlət Tarixi Memarlıq Muzeyi ilə tanışlıq olub. İçan-Qala barədə dövlətimizin başçısına məlumat verilib.

Həmin gün Xivə şəhərində Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə qəbul təşkil edilib. Qəbulda konsert proqramı təqdim olunub, dövlət başçıları incəsənət ustalarının çıxışlarını dinləyib, onlarla söhbət ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına dövlət səfəri iyunun 22-də başa çatıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 22 iyun tarixli Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif edilənlər arasında Naxçıvan Muxtar Respublikasında çalışan dövlət qulluqçuları da vardır:

**Əkbərov Elman Əsgər oğlu**
**Fərəcov Xəlil Şaban oğlu**
**Gülməmmədov İsmayıl Şirməmməd oğlu**
**Qazıbəyov Səfər Arif oğlu**
**Novruzov Nurəddin Məhəmməd oğlu**

"Tərəqqi" medalı,

**Bayramzadə Yalçın Rasim oğlu**
**Əhmədov Anar Hüseyn oğlu**
**Əliyev Elgin Hümbət oğlu**
**Qəhrəmanova Səkinə Hümbətalı qızı**
**Məmmədov Xudakərim Avtandil oğlu**
**Məmmədzadə Vüsal Əziz oğlu**
**Novruzov Razi Əlövsət oğlu**
**Rzayev Həbib Firudin oğlu**
**Seyidov Yusif Abdulla oğlu**
**Səfərov Vüqar İbrahim oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişlər.

## 2022-ci ilin yanvar-may aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2022-ci ilin yanvar-may aylarında 1 milyard 50 milyon 572 min 500 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövründəki göstəricidən 1,8 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz artaraq 2267,1 manat olmuşdur.

***

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 2022-ci ilin yanvar-may aylarında 472 milyon 471 min100 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çoxdur.

***

Vəsait qoyuluşları çərçivəsində 2022-ci ilin yanvar-may aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 411 milyon 247 min 300 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,2 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 396 milyon 230 min 900 manatı və ya 96,3 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

***

2022-ci ilin yanvar-may aylarında 62 milyon 134 min 300 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,6 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 10397 ton, süd istehsalı 38150 ton olmuşdur. 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 6,2 faiz, süd istehsalı isə 1,7 faiz artmışdır.

***

2022-ci ilin yanvar-may aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 24 milyon 765 min 400 manat olmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 3,5 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 17 milyon 954 min 400 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,6 faiz artmışdır.

***

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2022-ci ilin yanvar-may aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 116 milyon 669 min 700 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 36,8 faiz çoxdur. Verilmiş kreditlərin 9 milyon 675 min 800 manatı və yaxud 8,3 faizi qısamüddətli, 106 milyon 993 min 900 manatı və yaxud 91,7 faizi uzunmüddətli kreditlər olmuşdur.

***

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

***

2022-ci ilin yanvar-aprel aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış ortaaylıq əməkhaqqı 587,4 manata çatdırılmışdır ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,5 faiz çoxdur.

***

1 may 2022-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 1473 nəfər artaraq 463 min 585 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Quruculuq işləri qədim Şərurun simasını dəyişir



Naxçıvan Muxtar Respublikasının sürətli sosial-iqtisadi inkişafı, mühüm infrastruktur layihələrinin uğurla həyata keçirilməsi qədim diyarımız olan Şərur rayonunda da tikinti, quruculuq və abadlıq işlərini xeyli sürətləndirib. "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na müvafiq olaraq bu bölgədə bir-birindən əhəmiyyətli sosialyönümlü obyektlər tikilib istifadəyə verilir, şəhər və kəndlər müasir görkəm alır.

7400 nəfər sakinin yaşadığı Şərur şəhərində də quruculuq tədbirlərinin əhatə dairəsi xeyli genişləndirilib. Hazırda şəhərin ayrı-ayrı məhəllələrində tikinti işləri davam etdirilir, yeni-yeni obyektlər inşa olunur. Bununla bərabər, şəhərin Mikayıl Müşfiq küçəsindəki 1, 5, 8, 9 və 15 nömrəli yaşayış binalarında əsaslı təmir işləri aparılır.

Hazırda şəhərin Mikayıl Müşfiq küçəsi geniş bir tikinti meydançasını xatırladır. Buradakı yaşayış binaları təmir olunur, onlara yeni görkəm verilir. İşlər kompleks qaydada aparılır, bir iş digərini tamamlayır. Binaların çardaq örtüyü yenilənir, qapı və pəncərələr dəyişdirilir, həyətləri abadlaşdırılır, hörgü işləri aparılır. Bütün bu işlərin həyata keçirilməsində ağıryüklü texnikaların qüvvəsindən də səmərəli istifadə olunur.

Həyata keçirilən tikinti və yenidənqurma işləri bina sakinlərini razı salır.



Onlar bütün bu işləri əhalinin firavan yaşayışı naminə aparılan və dövlət tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlərin məntiqi davamı kimi dəyərləndirirlər.

Onu da bildirək ki, bu binalarda aparılan yenidənqurma tədbirləri başa çatdırıldıqdan sonra ərazi daha gözəl görkəm alacaq, müasir memarlıq üslubu ilə seçiləcək, nümunəvi həyətlər salınacaq.

**Xəbərlər şöbəsi**

## Xalq-ordu birliyinin növbəti təzahürü

Bu gün Azərbaycanın ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda aparılan ordu quruculuğu uğurlu dövlət siyasətinin bir hissəsi kimi müasir tələblərə cavab verir, hərtərəfli qayğı və diqqətlə əhatə olunur. Bunun nəticəsidir ki, artıq ölkəmizdə milli ideologiyaya xidmət edən, xalq və ordu birliyinin ən gözəl nəticəsi sayılan vahid Azərbaycan Ordusu formalaşıb. Tariximizə gümümüzün reallıqları kimi yazılan inkişaf və tərəqqi ordu quruculuğunda da özünü doğrultmaqdadır.

Müasir Azərbaycan Ordusunun hər bir lazımi şəraitlə təchiz olunmasına baxmayaraq, muxtar diyarımızdakı idarə və təşkilatların, sahibkarların, torpaq mülkiyyətçiləri və ailə təsərrüfatlarının ordu sıralarında xidmət edən əsgərlərimizə diqqət göstərməsi artıq ənənə halını almışdır. Bu tədbirlərin davamı olaraq 26 İyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü ərəfəsində Naxçıvan Beynəlxalq Hava Limanının kollektivi "N" hərbi hissədə olub, əsgərlərlə görüşüb onlara mövsümi meyvələrdən ibarət 400 kiloqrama yaxın sovqat paylayıblar.

Beynəlxalq Hava Limanının direktor müavini Rəfail İbrahimov çıxış edərək diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər ardıcıl xarakter alıb. Xalqımızın mübarizə və qəhrəmanlıq tarixini özündə yaşadan Naxçıvan bu gün etibarlı müdafiə olunur. Bunun nəticəsidir ki, İkinci Qarabağ müharibəsində Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları böyük şücaət göstərib, ərazi bütövlüyümüzün təmin olunmasında iştirak ediblər.



Hərbi hissənin zabiti Elvin Qurbani kollektiv adından minnətdarlıq edərək vurğulayıb ki, Azərbaycanın müstəqil dövlət quruculuğunun bütün sahələrində, o cümlədən hərbi təhlükəsizliyi istiqamətində gördüyü əzəmətli işlər ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi liderin müstəqil Azərbaycanın dövlət rəhbəri kimi fəaliyyətinin elə ilk günləri göstərdi ki, respublikanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü etibarlı şəkildə qorumaq, ölkənin bütün potensialını məqsədyönlü şəkildə bu istiqamətə yönəltmək, hərbi təhlükəsizliyin təmin edilməsinə hesablanmış hərbi siyasəti səmərəli şəkildə həyata keçirmək Vətənə xidmətin əsas meyarıdır. Bu gün artıq Azərbaycanda daxili hərbi-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin, xalqın birliyinin təmin edilməsi özünü bütün reallıqlarla göstərməkdədir.

Əsgərlərdən Neman Məmmədli və Məhəmməd Mehdiyev göstərilən diqqət və qayğıya görə minnətdarlıq ediblər. Sonra sovqatlar hərbi hissəyə təqdim olunub.

**Məcid RƏŞADƏTOĞLU**



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 5 may tarixli Sərəncamına əsasən hər il iyunun 23-ü ölkəmizdə Dövlət Qulluqçularının Peşə Bayramı Günü kimi qeyd olunur.*

*23 iyun Dövlət Qulluqçularının Peşə Bayramı Günüdür*

# Dövlət qulluğu xalqa və dövlətə xidmət imkanıdır

Azərbaycanda dövlət qulluğu sisteminin formalaşması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin xalqın təkidli tələbi ilə ikinci dəfə ali hakimiyyətə qayıdışı ilə ölkəmizdə ictimai-siyasi sabitlik bərqərar edilmiş, dövlət idarəçiliyinin yeni əsasları formalaşdırılmış və Azərbaycan davamlı inkişaf yoluna qədəm qoymuşdur. Dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi və demokratikləşdirilməsi prosesinə başlanılmış, dövlət qulluğu sahəsində islahatlar həyata keçirilmiş, zəngin qanunvericilik bazası yaradılmışdır. Dövlət qulluğu sahəsində aparılan islahatların ən mühüm nəticələrindən biri 2000-ci il iyulun 21-də "Dövlət qulluğu haqqında" Qanunun qəbul edilməsidir. Həmin qanunla Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulmuş, bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yeri, onların hüquq və vəzifələri müəyyənləşdirilmişdir.

Ulu öndərin dövlət qulluğu siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının imzası ilə mühüm Dövlət proqramları təsdiq olunmuş, dövlət qulluğu sahəsində mütərəqqi normativ-hüquqi baza formalaşdırılmış, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları vaxtında aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizmi yaradılmış, dövlət qulluğu sahəsində münasibətlərin tənzimlənməsi daim nəzərdə saxlanılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın təsdiq edilməsi bunun bariz nümunəsidir. Dövlət qulluqçularının maddi rifah halının yaxşılaşdırılması istiqamətində mütəmadi tədbirlərin həyata keçirilməsi də ölkə başçısının diqqət mərkəzindədir. Bu istiqamətdə görülən işlərə uyğun olaraq 2022-ci ildə ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə dövlət qulluqçularının əməkhaqlarının 1,1 misli həcmində artırılması aparılan islahatların məntiqi davamıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublikada dövlət qulluğu sahəsində uğurlu islahatlar aparılmış, müasir dövlət idarəçilik sistemi formalaşdırılmışdır. Həyata keçirilən islahatları iki qrupa ayırmaq olar. Birinci istiqamət dövlət qulluğu sahəsində institusional islahatların həyata keçirilməsi ilə bağlıdır. Bu məqsədlə qanunvericiliklə müəyyən edilmiş dövlət siyasətini və tənzimlənməni həyata keçirən dövlət orqanları yaradılmış və onların normal fəaliyyət göstərməsi təmin olunmuşdur. Dövlət idarəçiliyində innovasiyalar tətbiq edilmiş, "Elektron hökumət" portalı, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi sistemləri istifadəyə verilmiş, bəzi dövlət orqanları üzrə səyyar xidmətlər təşkil olunmuş, "ASAN xidmət" Mərkəzi yaradılmışdır. Dövlət orqanları üçün ən müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmiş, maddi-texniki baza gücləndirilmiş, dövlət qulluqçularının fəaliyyəti yaxşılaşdırılmış, onlara lazımi iş şəraiti yaradılmışdır. Bütün bunlar insan amilinə verilən dəyərin göstəricisidir.

Dövlət qulluğu sahəsində islahatların ikinci istiqaməti isə müasir tələblərə cavab verən kadr siyasətinin həyata keçirilməsidir. Bu siyasətin əsas məqsədi dövlətə və cəmiyyətə xidmət üçün lazımi keyfiyyətlərə malik dövlət qulluqçularının formalaşdırılması, habelə dövlət qulluğu sferasının yüksək peşəkarlığa malik, vicdanlı, məsuliyyətli və vətənə sədaqətli işçilərin cəlb olunmaqla komplektləşdirilməsidir. Qeyd edilən məqsədlərə nail olmaq üçün muxtar respublikada yeni məktəb binaları, ali və orta ixtisas təhsili müəssisələri üçün yeni tədris korpusları tikilmiş, təhsil müəssisələrində tədris müasir standartlara uyğunlaşdırılmış, maddi-texniki baza möhkəmləndirilmiş, mütəxəssis və kadrların hazırlığı üçün hərtərəfli şərait yaradılmışdır. Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə bağlı Ali Məclis Sədrinin müvafiq sərəncamları dövlət orqanları və təhsil müəssisələri arasında əlaqələrin genişlənməsinə, insan kapitalının inkişafına, dövlət qurumlarının ixtisaslı kadrlarla təmin olunmasına imkan vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 22 aprel tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın yaradılması bu istiqamətdə həyata keçirilən islahatların ən vacib tərkib hissəsidir. Muxtar respublikada dövlət qulluğu sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə Ali Məclis Sədrinin 2020-ci il 18 dekabr tarixli Fərmanı ilə komissiyanın əsasında Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi yaradılıb. Mərkəzin yaradılmasında əsas məqsəd dövlət qulluğu sahəsində qəbul edilmiş normativ-hüquqi aktların muxtar respublikada tətbiqinin təşkil edilməsi, dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsi, yerləşdirilməsi, dövlət qulluqçularının etik davranış qaydalarına əməl olunmasına nəzarət edilməsi, dövlət qulluqçularının əlavə təhsili, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən yaradılmış digər dövlət orqanlarında və publik hüquqi şəxslərdə işə qəbul, attestasiya, sertifikasiya və qiymətləndirmənin həyata keçirilməsi sahəsində qanunvericiliklə nəzərdə tutulmuş siyasətin həyata keçirilməsinin təmin edilməsidir. Mərkəzdə test mərkəzinin, lokal kompüter şəbəkəsinin, mərkəzi server sisteminin mövcudluğu innovasiya və startapların tətbiqini mümkün etmişdir. Test imtahanı proqramı, Dövlət Qulluqçuları və Dövlət Orqanları İşçilərinin Reyestrinin aparılması proqramı, test və müsahibələrdə iştirak üçün onlayn qeydiyyat proqramı istifadəyə verilmişdir. Dövlət İmtahan Mərkəzinin portalının və yeni proqram təminatının istifadəyə verilməsi vətəndaşların dövlət qulluğuna qəbul üçün müraciət etmək imkanlarının asanlaşdırılmasına, vaxt və maliyyə itkisinin qarşısının alınmasına, mərkəzə gəlmədən və əlavə sənəd təqdim etmədən "şəxsi kabinet" vasitəsilə internet üzərindən qeydiyyatdan keçməklə test və müsahibələrdə iştiraka şərait yaradılmışdır.

Bu gün muxtar respublikada vətəndaşların dövlət qulluğuna müsabiqə və şəffaflıq əsasında qəbulu üçün lazımi şərait mövcuddur. İndiyədək keçirilmiş 22 müsabiqədə 7270 namizəd iştirak etmiş, onlardan 1354-ü müsabiqələri müvəffəqiyyətlə başa vuraraq dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinə təyin olunmuşdur. Mərkəz tərəfindən dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqələrin test imtahanları da keçirilir. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər, Ədliyyə, Fövqəladə Hallar nazirlikləri, Muxtar Respublika Prokurorluğu, Dövlət Gömrük Komitəsi, Vergi, Miqrasiya, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət xidmətlərində vakant vəzifələrin tutulması və Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının üzvlüyünə qəbul üçün indiyədək keçirilmiş 54 müsabiqədə iştirak edən 2524 namizəddən 810-u test imtahanlarında müvafiq keçid balını toplamışdır.

Hər il məhkəmə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının əməkdaşları üçün etik davranış qaydalarına riayət olunması, kargüzarlığın, dövlət qulluqçularının reyestrinin və şəxsi işlərinin aparılması qaydaları, dövlət qurumlarında informasiya təhlükəsizliyi və digər mövzularda keçirilən seminarlarda yüzlərlə inzibati vəzifə tutan dövlət qulluqçusu iştirak edir. "Səyyar dövlət qulluğu xidməti könüllülüyü" layihəsi çərçivəsində rayonlarda yaşayan, internet və informasiya-kommunikasiya texnologiyalarından istifadə edə bilməyən və elektron xidmətlərdən istifadə etməkdə çətinlik çəkən vətəndaşlara yaşadıqları yerlərdə səyyar xidmət göstərilir. Gənc dövlət qulluqçularını intellektual fəaliyyətə cəlb etmək, onlar arasında bilik və elmin nüfuzunu artırmaq məqsədilə intellektual oyunlar keçirilir.

Həyata keçirilən uğurlu kadr islahatları nəticəsində muxtar respublikada dövlət qulluqçularının yaş tərkibi getdikcə cavanlaşır, təcrübəli işçilərlə yanaşı, gənclərə də geniş yer verilir. Bu, dövlət idarəçiliyində öz müsbət nəticəsini göstərməkdədir. Dövlət Qulluqçuları Reyestrinin məlumatlarına əsasən muxtar respublikanın dövlət orqanlarında 2385 nəfər fəaliyyət göstərir ki, onların 55-i siyasi, 1851-i inzibati, 479-u isə yardımçı vəzifə tutur. Dövlət qulluqçularının 25 faizini gənclər, 24 faizini isə qadınlar təşkil edir. Keçirilən müsabiqələrdə iştirak edənlərin sayının ildən-ilə artması onu göstərir ki, bu sahədə həyata keçirilən dövlət siyasəti öz bəhrəsini verir və vətəndaşların, xüsusilə gənclərin dövlət qulluğuna, o cümlədən dövlət qulluğunun xüsusi növünə aid orqanlara marağı artır. Muxtar respublikada bütün sahələrdə olduğu kimi, dövlət qulluğu sahəsi də öz intibah dövrünü yaşayır.

Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının günün tələblərinə uyğun fəaliyyət göstərməsi üçün hərtərəfli şərait yaradılmış, dövlət qulluqçuları qayğı ilə əhatə olunmuş, öz fəaliyyəti ilə fərqlənənlər təltif edilmişlər. Bu gün dövlət qulluqçularının sosial müdafiəsi, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması diqqətdə saxlanılır, muxtar respublikanın şəhər və rayonlarında "Gənclər" şəhərcikləri və yeni yaşayış binaları inşa edilir. Bütün bunlar muxtar respublika rəhbəri tərəfindən dövlət qulluqçularına göstərilən qayğının və insan amilinə verilən dəyərin bariz nümunəsidir. Göstərilən qayğının müqabilində hər bir dövlət qulluqçusu bundan sonra da səylə çalışmalı, ölkəmizin, muxtar respublikamızın inkişafı və tərəqqisinə öz töhfəsini verməlidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Dövlət qulluğunda çalışmaq o deməkdir ki, həmin vətəndaşa müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanı etibar edilmişdir. Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır. Tutduğu vəzifənin səviyyəsindən və əhəmiyyətindən asılı olmayaraq, dövlət qulluqçusu həmişə xatırlamalıdır ki, o, xalqın xidmətçisidir, insanlara xidmət, onların qayğıları ilə yaşamaq onun əsas vəzifəsidir".***

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

# "Məzun Günü" qeyd olunub



*Naxçıvan Dövlət Universitetində çoxsaylı müəllim və tələbə heyətinin iştirakı ilə keçirilən "Məzun Günü"ndə aparıcılar tamaşaçıları salamladıqdan sonra orkestrin musiqi sədaları altında məzun keçidi baş tutub.*

Universitetin rektoru Elbrus İsayev təbrik çıxışı zamanı qeyd edib ki, tələbəlik illəri insan həyatında yer tutan ən önəmli dövrü təşkil edir. Həmin dövr gəncliyin xoş günlərini özündə əks etdirməklə yanaşı, hər hansı bir ixtisasa, elmə, biliyə yiyələnmək, gələcəkdə ondan daim yararlanmaq baxımından tələbələrin həyatında böyük izlər qoyur. Qeyd olunub ki, universitetin də məqsədi məhz intellektual, bacarıqlı, vətənpərvər gənclər yetişdirməkdir. Bu illər ərzində məzunların ictimai həyatda da aktiv olduğunu diqqətə çatdıran rektor bildirib ki, məzunlar təkcə auditoriyada deyil, ictimai işdə fəallıq göstərib, universitetin bütün tədbirlərində fəal iştirak ediblər. Vurğulanıb ki, universitet həyatında baş verənlər tələbələrin həyatında gözəl xatirə kimi hər zaman yaşayacaq. Elbrus İsayev bütün məzunları təbrik edib, onlara gələcək həyatlarında uğurlar arzulayıb.

Vaxtilə Naxçıvan Dövlət Universitetində ali təhsil almış tanınmış şair-yazıçı, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar qeyd edib ki, tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəslə bağlayır. Bildirilib ki, gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir. Həmçinin dünyanın istənilən ölkəsində gənclər sosial-iqtisadi inkişafın aparıcı qüvvələrindən biri, cəmiyyətin islahatlarını hərəkətə gətirən zümrəsi və yaşlı nəslin davamçısı hesab olunur. Məhz Naxçıvan Dövlət Universiteti də bacarıqlı gənclərin yetişdirilməsində xüsusi rol oynayır. Asim Yadigar məzunları təbrik edərək onlara cansağlığı arzulayıb.

Məzunlardan Vətən müharibəsində qəhrəmanlıqla vuruşaraq şəhid olan, "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülən Faiq Qasımovun övladı Zamin Qasımov ali təhsilini məhz Naxçıvan Dövlət Universitetində aldığına görə qürur



hissi duyduğunu bildirib. O bütün məzun yoldaşlarını təbrik edib.

Tədbir tələbələrin hazırladığı konsert proqramı ilə davam edib. Xarici tələbələrin də musiqi nömrələri ilə çıxış etdiyi konsert və rəqs nümunələri iştirakçılarda xoş ovqat yaradıb. Tələbələrin əl işlərinin nümayiş olunduğu sərgi izləyicilərdə maraq doğurub.

Sonra fakültələr üzrə məzunların təbrik çıxışları olub. Pedaqoji fakültənin tələbələrinin hazırladığı tamaşa iştirakçılar tərəfindən alqışlarla qarşılanıb.

Universitet məzunlarından ümumi orta müvəffəqiyyət göstəricilərinə görə fərqlənən tələbələrə plaket və hədiyyələr təqdim olunub, məzun Səkinə Məmmədzadə "Məzun kötüyü"nə xatirə lövhəsini vurub.

Sonda məzunların "papaqatma" mərasimi olub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# “Nuh diyarı – Naxçıvan” infoturuna start verilib




*21-24 iyun tarixlərdə Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi, Azərbaycan Turizm Bürosu və Turizm Assosiasiyaları, Azərbaycan-Türkiyə-İran media nümayəndələrinin iştirakı ilə “Nuh diyarı – Naxçıvan”infoturuna start verilib.*

İnfotur iştirakçıları əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstəsi qoyub, dahi şəxsiyyətə ehtiramlarını bildirib, Heydər Əliyev Muzeyini ziyarət ediblər. Muzeyin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev qonaqlara muzey haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, 10 may 1999-cu ildən fəaliyyət göstərən muzeyin fondunda bu gün ulu öndərin həyat və fəaliyyətini əks etdirən beş mindən çox eksponat toplanıb. Muzeydə ümummilli liderin şərəfli ömür yolunu əks etdirən fotoşəkillər, xatirə əşyaları və digər dəyərli eksponatlar qonaqlarda böyük maraq doğurub.



Sonra Naxçıvan Biznes Mərkəzi ilə tanışlıq olub, “Nuh diyarı – Naxçıvan” infoturunun rəsmi açılış mərasimi keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov çıxış edərək bildirib ki, infoturun məqsədi Naxçıvanın zəngin turizm potensialını təqdim etməklə yanaşı, Azərbaycan, Türkiyə və İran arasında turizm və media sahəsində qarşılıqlı əməkdaşlığın inkişafına köməklik göstərməkdir. Tur iştirakçıları üç gün ərzində muxtar respublikanın tarixi, mədəniyyəti, təbiəti və müasir turizm infrastrukturu ilə yaxından tanış olacaq, sözügedən sahələrdə yeni əlaqələr yaradacaqlar.

Bildirilib ki, ölkəmizin hər bir guşəsi kimi, “Şərqin qapısı” adlandırılan Naxçıvanın əlverişli coğrafi mövqeyi, müxtəlif iqlim qurşaqlarının mövcudluğu, zəngin mədəni irsi, təbii müalicə mərkəzləri, mineral suları, özünəməxsus mətbəxi, yüksək qonaqpərvərlik ənənələri və müasir tərəqqisi muxtar respublikada turizmin inkişafını şərtləndirən başlıca



amillərdir. Muxtar respublikanın zəngin təbiəti və onun qorunması sahəsində həyata keçirilən tədbirlər burada turizmin bir çox növünün inkişafına şərait yaradıb.

Çıxışda son illərdə qədim diyarın turizm potensialından səmərəli istifadə olunması, mövcud tələblərə cavab verən turizm infrastrukturunun formalaşdırılması sahəsində görülən işlərdən danışılıb.

Diqqətə çatdırılıb ki, Naxçıvanın son illərdə beynəlxalq tədbirlərə, idman yarışlarına ev sahibliyi etməsi, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması və ölkəmizin Gənclər Paytaxtı seçilməsi turizm imkanlarını nümayiş etdirmək baxımından mühüm əhəmiyyətə malik olub. Londonda nəşr olunan “Wanderlust” jurnalında Naxçıvan Muxtar Respublikası dünyanın ən yaxşı 50 turizm mərkəzlərindən biri kimi qeyd olunub. Bütün bunlar muxtar respublikamızda qısa müddətdə turizm sahəsində qazanılmış böyük uğurların göstəricisidir. Əkbər Novruzov çıxışının sonunda bütün tədbir iştirakçılarına uğurlar arzulayıb.

Sonra mətbuat konfransı və üç ölkəni təmsil edən turizm sektoru nümayəndələri arasında mövcud biznes əlaqələrinin möhkəmlənməsi, yeni əməkdaşlıqların yaranması məqsədilə biznesdən-biznesə formatında qarşılıqlı işgüzar görüşlərə başlanılıb. Mətbuat konfransında yerli və xarici media nümayəndələrini maraqlandıran Azərbaycan-Türkiyə-İran arasında turizm əlaqələrini daha da inkişaf etdirməyin yolları və burada Naxçıvanın rolu, infoturdan sonra Naxçıvan Muxtar Respublikasına turist axını ilə bağlı gözləntilər, açılacaq Zəngəzur dəhlizinin ölkələrarası turizmə təsiri, turizm sahəsində müştərək layihələrin hazırlanması ilə bağlı və digər bu kimi suallar Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədr müşaviri Kənan Quluzadə, Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov, “Emperor Travel Clup” TÜRSAB idarə heyətinin üzvü Tolga Gəncər, Şərqi Azərbaycan Vilayəti Səyahət Agentlikləri Assosiasiyasının sədri Rashid Rajab Pour tərəfindən cavablandırılıb.

Muxtar respublikamızın coğrafi mövqeyi, özünəməxsus iqlimi, fauna və florası, qədim tarixə malik mədəniyyət abidələri ilə zəngin olan Ordubad rayonu özünün qədimliyi, dillərə dastan olan bağları, tarixi abidələri ilə Naxçıvana gələn qonaqların daim diqqətini çəkib. “Nuh diyarı – Naxçıvan” infoturunun iştirakçıları da Ordubad rayonunda gəzintidə olublar. Ordubad şəhər gəzintisi və “Xan Çinar” İstirahət Mərkəzi ilə tanış olan qonaqların təəssüratları ilə oxucularımızı tanış edirik.

***Kənan Quluzadə – Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədr müşaviri:*** – Dövlət Turizm Agentliyinin Naxçıvan Turizm Departamenti ilə hər il qəbul olunan fəaliyyət planı var. Naxçıvanın xarici turistlərə tanıdılması da bu planda əsas yer alır. Naxçıvan Azərbaycanın xüsusi turistik bölgəsidir. Biz də, öz növbəmizdə, keçirilən tədbirlərimizdə Naxçıvanın tanıdılmasına xüsusi yer ayırırıq. Ötən il mediatur təşkil etdik və o turdan sonra artan marağın effektini görməkdəyik. Bu infoturda isə Naxçıvana daha yaxın olan ölkələrin turizm şirkətlərinin nümayəndələrini cəlb etmişik ki, özləri görüb turistlərə təbliğ edə bilsin. Bu qədim diyarın istər mətbəxi, istər turistik imkanları, istərsə də qonaqpərvərliyi buraya ilk dəfə gələn turistin növbəti dəfə gəlməsi üçün kifayət edir. Onu da deməliyəm ki, muxtar respublika rəhbərinin turizm sahəsinə göstərdiyi diqqət və qayğı bu sahənin inkişafına böyük təkan verir. Yaradılan “Xan Çinar” İstirahət Mərkəzi də bu qayğının bariz nümunəsidir.

***Tolga Gəncər – “Emperor Travel Club” TÜRSAB idarə heyətinin üzvü:*** – Biz TÜRSAB olaraq fərqli-fərqli ölkələrə turlar təşkil edirik. Bu turların məqsədi iki ölkə



arasında turizm potensialını artırmaqdır. Türkiyədəki turistlərə Naxçıvanı daha yaxından tanıda bilmək üçün əvvəlcə mütləq özümüz tanımalı idik. Burada ilk dəfədir, oluram. Çox dəyişik havası, insanları, mətbəxi var və bütün bunlar turistləri cəlb etmək üçün əhəmiyyətlidir. Naxçıvanın tarixi abidələri, qədimliyi imkan verir ki, gələcəkdə daha fərqli turistik məkanlar açaraq ideal bir turist bölgəsinə çevrilsin.

***Rashid Rajab Pour – Şərqi Azərbaycan Vilayəti Səyahət Agentlikləri Assosiasiyasının sədri:*** – Uzun illər əvvəl olduğum Naxçıvanı bu gün tanıya bilmədim. Çox böyük inkişaf prosesi gedib. İnanıram ki, təşkil olunan turla ölkəmin turistlərində Naxçıvana böyük maraq oyanacaq. Belə bir maraqlı, fərqli və rəngarəng bir proqram hazırladıqları üçün təşkilatçıları alqışlayıram. Naxçıvan məhsullarına da maraq çox böyükdür. Burada Ordubad məhsullarından



daddıq. Tək sözlə deyə bilərəm ki, hər şey möhtəşəmdir.

***Fatemeh Sheykh Pour – Qərbi Azərbaycan Vilayəti Səyahət Agentlikləri Assosiasiyasının katibi:*** – Öncə bizi bura dəvət edənlərə, turun təşkilatçılarına minnətdarlığımı bildirirəm. İlk dəfədir, buradayam. İstər hava, istər təbiət, istərsə də mətbəx baxımından İranla çox oxşarlıq görürəm. Bu tur fürsət yaradır ki, biz sizinlə birgə buraya qarşılıqlı turistik səfərlər təşkil edək. Burada gördüklərimdən belə qənaətə gəlmişəm ki, yaxın gələcəkdə Naxçıvan tanınmış turist zonalarından birinə çevriləcək. Çox sevinirəm, xoşbəxtəm ki, buradayam. Arzu edirəm ki, belə səfərlər tez-tez olsun.

***Esmaeil Akbari Milani – Şərqi Azərbaycan Vilayəti Səyahət Agentlikləri Assosiasiyasının sədr müavini:*** – Naxçıvanda özümüzü doğma evimizdəki kimi hiss etdik. Çünki buranın insanları istiqanlı, qonaqpərvər və mehribandırlar. Hər yerdə qonağa hörmətin nümunəsini gördük. Bu gün Ordubadda olduq. Şəhər, onun quruluşu, məscidləri, digər tarixi abidələri, Ordubad çinarları məndə dərin təəssürat yaradıb. Milli yeməklərinizi çox bəyənirəm. Mənə görə, Naxçıvan mətbəxinin əvəzi yoxdur. Ordubadda nələr görmədik? Bu şəhər başdan-başa muzeydir. Burada yeni yaradılmış



“Xan Çinar” İstirahət Mərkəzi deyə bilərəm ki, kənd turizminin inkişafında xüsusi dəyərə malikdir. Sakinlərə, eləcə də buraya gələn qonaqlara milli mətbəx nümunələrinizin tanıdılması, təbliğ olunması və yüksək xidmətin göstərilməsində bu istirahət mərkəzi böyük əhəmiyyətə malikdir. Ordubadda aldığım təəssüratlar, bir sözlə, mükəmməl və heyranedici oldu.

***Sevinc Zeynallı – Azərbaycan Turizm Bürosunun Beynəlxalq Bazarlarının İdarəedilməsi Departamentinin direktoru:*** – Bu gün təşkil olunan infotur tamamilə fərqli və



geniş çərçivədədir. Fikrimcə, Yaxın Şərqdən olan turistləri bura cəlb etməklə Naxçıvan turizmini daha da inkişaf etdirmək olar. Biz artıq infoturda iştirak edən turizm şirkətləri ilə danışıqlara başlamışıq. Əvvəllər Naxçıvanda olsam da, Ordubad rayonuna ilk dəfədir, gəlirəm. Bu rayonda qədimlik möhtəşəm bir şəkildə qorunub saxlanılır. Ümummilli liderimizin də dediyi kimi Ordubad Azərbaycanın incisi adına, həqiqətən, layiqdir.

***Florian Zenqstşmid – Azərbaycan Turizm Bürosunun Baş icraçı direktoru:*** – Bu mənim qədim diyara olan ikinci səfərimdir. Naxçıvana Azərbaycan Dövlət Turizm Agentliyi, Azərbaycan Turizm Bürosunun əsas komanda heyətini, eyni zamanda turizm yerli, Türkiyə və İranın nümayəndə heyətini gətirmişik ki, onların hər biri turizm ekspertləri və media nümayəndəsi kimi Naxçıvanı görsünlər və buradakı turizm xidmətləri ilə daha yaxından tanış olsunlar. Bununla yanaşı, Naxçıvanda olan həmkarlarımızla birlikdə müzakirə edək ki, Naxçıvanın turizm potensialının daha yüksək formada təbliğinə necə nail ola bilərik. Həqiqətən də, Naxçıvan turizm potensialında mühüm əhəmiyyəti ilə seçilən yerlərdən biridir. Yaradılmış infrastruktur imkan verir ki, muxtar respublikaya üz tutan turistlərin sayı daha da çox olsun. Burada olarkən hiss etdim ki, bu diyarın bənzərini heç yerdə görməmişəm. Naxçıvanın yaşıllığı, ətrafının təmizliyi, abadlığı və səliqə-sahmanı insanı məftun edir. Mənə təsir edən əsas nüanslardan biri də Naxçıvanın qeyri-adi landşaftı və əlbəttə ki, bu dəqiqə ən çox ehtiyac duyduğumuz təmiz havası oldu.

***Hasan Hazirlar – “Kanula Tourism” şirkətinin rəhbəri:*** – Naxçıvan şəhərində yerləşən Biznes Mərkəzində də oldum. Mərkəzlə tanışlıq çox maraqlı idi. Burada muxtar respublikada istehsal edilən məhsulların çeşidləri ilə tanış oldum, Naxçıvanın ixrac potensialı barədə ətraflı məlumat aldım. Öyrəndim ki, bu gün muxtar respublika özünü ərzaq məhsulları ilə yanaşı, digər məhsullarla da təmin edir. Burada mənim üçün maraqlı bir məqamla da rastlaşdım. Öyrəndim ki, keyfiyyəti, faydalılığı və dadı ilə seçilən “Sirab” mineral suyu Naxçıvanda istehsal olunur. Daha sonra tur çərçivəsində Ordubadda olduq. Ordubadla tanışlıq turizmin əsas mərkəzlərindən biri kimi həm gəzib-görmək və dincəlmək, həm də ağız dadını dəyişmək üçün ən gözəl seçimdir. Muxtar respublikanı fərqləndirən



əsas cəhətlərdən biri də burada insanın özünü çox rahat və təhlükəsiz şəraitdə hiss etməsidir. Naxçıvanda insanların davranışı və qayda-qanun bu inamı aşılayır. Bunun özü çox böyük uğurdur və əminəm ki, Naxçıvanın misilsiz gözəlliyi ilə yanaşı, həm də sakit və cinayətsiz region olması turistlərin daha çox diqqətini cəlb edəcək. Mən də bir turizm şirkətinin rəhbəri olaraq gələcəkdə Türkiyəyə gələn xarici qonaqlara Naxçıvanı tanıdaraq bu mədəniyyəti mənimsəməyə imkan verəcək onlarla tur proqramı təşkil edəcəyəm.

*Qeyd edək ki, infotur 24 iyun tarixədək davam edəcək.*

**Güntac ŞAHMƏMMƏDLİ**
**Telli MƏMMƏDOVA**
**Aytac CƏFƏRLİ**

***İnsanı kamilləşdirən, yüksək məqamlara çatdıran, digər varlıqlardan üstün edən onun zəkasıdır. Zəkanın fəziləti isə elmdə, elm isə kitablardadır. İnsan oxuyursa, deməli, həm də düşünür. Düşünmək isə var olmaqdır. Bu fikri ümumiləşdirdikdə, deməli, insanın özünü və dünyanı dərk etməsi üçün onun oxuması vacibdir. Kitab insan ruhunun müqəddəs yazısı, mənəvi qidasıdır. Hələ kitab çapının olmadığı zamanlarda insanlar fikirlərini daş, gil lövhələr, papirus kağızları üzərinə yazıblar. Daha çox şifahi xalq ədəbiyyatı şəklində nəsildən-nəslə ötürülən nümunələr bəşər tarixinin ən böyük kəşflərindən biri olan kitab çapının ixtira olunması ilə yeni bir dövrə qədəm qoyub. 1440-cı ildə alman ixtiraçı Johan Qutenberq metal lövhələrin köməyilə ilk dəfə çap üsulunu kəşf edib. Çap məhsulu olan kitab bəşəriyyətin ən böyük kəşflərindən biri kimi əhəmiyyətini bu gün də qoruyub saxlamaqdadır.***

# Mütaliə ruhun mənəvi qidası, mənəvi kamilliyə və müdrikliyə aparan yoldur...

### *Mütaliənin faydaları*

Kitab ruhun və zehnin qidasıdır. Davamlı mütaliə etmək insanın söz ehtiyatını çoxaldır, dünyagörüşünü artırır, stres və depressiyadan mühafizə edir. İdman fiziki gücümüzü artırırsa, mütaliə də zehnimizi gücləndirir, düşüncələrimizi bəsləyir, yaddaşla bağlı yaranacaq xəstəliklərin qarşısını alır. Cəmiyyətə sağlam şəkildə adaptasiya olmaq, sosial münasibətlərə davamlılıq, qərar qəbuletmə və dinləmə bacarığının yolu məhz kitablardan keçir. Xüsusilə müasir dövrdə insanların böyük problemi olan ünsiyyətsizlik və özünəqapanma kimi problemlərin aradan qaldırılmasında kitabların rolu əvəzsizdir.

Deyirlər ki, kamil insan bildiyi qədər danışar, anladığı qədər susar. Bilginin qaynağı isə kitablardır. Nitqin inkişafında, düzgün danışıq qabiliyyətinin formalaşmasında mütaliənin rolu əvəzsizdir. Kamil nitq isə uğurun ilkin pilləsidir.

Mütaliə insanın xəyal dünyasını da zənginləşdirir, təsvir bacarığını gücləndirir. Hər hansı bir tarixi dövrü və ya psixoloji vəziyyəti tərənnüm edən əsəri mütaliə edərkən oxucu, obraz və personajları düşüncə tərzinə görə yaradıb, rənglərə boyayır, bəzən isə hadisələrin gedişatına tamamən özü istiqamət verir. Bu isə insanın hadisələrin mahiyyətinə nüfuzetmə qabiliyyətini artırır.

### *Mütaliə zövqümüzü necə formalaşdıraq*

İstər sosial şəbəkələrdə, istərsə də ətrafımda tez-tez "Oxumaq vərdişi necə yaradılmalıdır?" sualı ilə qarşılaşıram. Üstəgəl bu sualı daha çox gənc analar və tələbələr ünvanlayır. Uşaq tərbiyəsində belə bir fikir var: "Uşaqlarınızı tərbiyə etməyə çalışmayın, onsuz da onlar sizə oxşayacaqlar, özünüzü tərbiyə edin". Biz uşaqlarımızın güzgüsü, onlar isə bizim əksimizdir. Deməli, əvvəlcə özümüzü tərbiyə etməliyik. Uşaqların şəxsiyyətləri formalaşana kimi onlar valideynin, evdəki böyüklərin hərəkətlərini təqlid edirlər. Təsadüfi deyil ki, uşaqlar körpə vaxtlarından telefona, planşetə meyil edir, hətta onlar olmadan yemək belə yemirlər. Mütəxəssislərin fikrincə, hamiləlik zamanı ananın yediyi qida uşağa təsir göstərdiyi kimi, onun keçirdiyi emosional hallar, oxuduğu kitablar, qulaq asdığı musiqilər də uşağa eyni şəkildə təsir edir. Odur ki, körpə hələ doğulmamışdan əvvəl onun tərbiyəsi ilə məşğul olmaq lazımdır. Beşikdə ikən körpənin dinlədiyi laylalar, nəğmələr, nağıllar onların şüuraltına yerləşir. Əgər uşaq hələ körpə vaxtından valideyninin əlində kitab görərsə, o da kitaba maraqlı olacaq. Uşaq da mütaliəyə həvəsli yetişəcək.

Uşaqlar böyüdükcə onların kitab vərdişinin formalaşması bağça və məktəbdə davam edir. Artıq sərbəst oxumağa başladıqları zaman özləri müstəqil olaraq kitab seçir, mütaliə edirlər. İlk olaraq vərdiş kimi formalaşan kitab mütaliəsi zamanla mənəvi tələbata çevrilir. Bəzən dərslikdən başqa heç bir bədii ədəbiyyat oxumayan uşaq artıq mütaliə edə bilməyəcəyini düşünür. Lakin bu, doğru yanaşma deyil. Mütaliəyə başlamaq heç vaxt gec deyil. Əsas odur ki, maraq dairənə uyğun kitab seçə biləsən.




### *Çox oxuyan çox bilər, ya çox gəzən?*

Uşaqlıqdan "çox gəzən çox bilər" fikri hamımıza tanışdır. Etiraf edim ki, məndə əvvəllər bu fikrin doğruluğuna inanırdım, ta ki Möminə xatın türbəsinə ilk gedişimə qədər... Haqqında heç nə bilmədiyim bu abidə nə qədər kobud səslənsə də, mənim üçün adi bir tikili bağışlamışdı, heç bir xüsusi məna kəsb etməmişdi. Lakin tarix kitabında bu möhtəşəm abidə haqqında öyrənəndən sonra Möminə xatın türbəsinin tariximizdəki dəyərini, onun möhtəşəmliyini, əzəmətini dərindən dərk etdim və anladım ki, hər hansı bir tarixi dövr, məkan və hadisələr haqqında məlumatın olmadığı halda həmin yerləri dəfələrlə ziyarət etməyin, gəzməyin heç bir mənası yoxdur. Bilik hər şeyin təməl sütunudur. O kitabların müqəddəs səhifələrində gizlənib. Bu baxımdan Azərbaycan tarixinə həsr edilən kitabların mütaliəsi hər yaşda vacibdir. Bunun üçün də oxumalıyıq ki, tariximizə, mədəniyyətimizə yaxından bələd olaq.

Bu vərdişi özündə formalaşdırmaq istəyən oxucular ilk olaraq hansı janrın onlara maraqlı olduğunu müəyyənləşdirməli və oxuyacaqları kitabların siyahısını tərtib etməlidirlər. Mütaliə edən zaman səhifə sayı və oxuma müddətinin uzun olması vacib deyil. Əsas məsələ hər gün davamlı olaraq az da olsa, oxumaqdır. Oxumaq çox tez vərdiş halına gələn xoş bir məşğuliyyətdir. Gündə bir neçə səhifə oxumağa başladığınız zamanla bu say artacaq. Kitab oxuyarkən şəxsi qeydlər aparmaq, kitab haqqında fikirlərinizi ayrılıqda qeyd etmək onu daha yaddaqalan edəcək. Mütaliəni sevən bir kitab həvəskarı kimi deyə bilərəm ki, mütləq şəkildə oxuduğunuz kitablarla öz şəxsi kitabxananızı qurmağa çalışın. Çünki kitablar nə qədər göz önündə olarsa, sizi oxumağa bir o qədər həvəsləndirər. Kitabxana elə bir xəzinədir ki, gün keçdikcə onu daha da zənginləşdirmək istəyirsən və həmin kitablar evin bir hissəsində, öz şəxsi kitabxananızda olduğu zaman daim diqqətinizdə qalır, onu yenidən oxumaq istəyirsiniz.

Mütaliə etmək üçün milli ədəbiyyatımızdan başlamaq daha məqsədəuyğundur. Çünki bir çox xarici ədəbiyyat nümunələri mənsub olduğu xalqın milli-mənəvi düşüncələrini, psixologiyasını, adət-ənənələrini təzahür etdirir. Bu kimi dəyərlər bizə yad olduğu üçün bəzən yeni mütaliəyə başlayan oxucu sıxılır və kitabdan uzaqlaşır. Bundan əlavə, "əvvəl evin içi, sonra çölü" məsəlini əsas götürərək vurğulamaq istərdim ki, hər birimiz milli ədəbiyyat nümunələrimizi, tarixi romanlarımızı, xalq dastanlarımızı oxumalı, övladlarımıza öyrətməli, daha sonra dünya ədəbiyyatı nümunələrinə yer verməliyik.

Çox kitab oxumaq insana zərər verməsə də, düzgün mövzuda seçilməyən kitab psixologiyamıza mənfi təsir edə bilər. Bu hallara, xüsusilə uşaq və yeniyetmələrdə, emosional həssaslığı olan oxucularda rast gəlmək mümkündür. Bu mənada, uşaqlara kitab alarkən həmin kitabın mövzusu haqqında məlumatlı olmaq lazımdır. Təəssüf ki, bəzən üz qabığı və ya adı cəlbedici olan bəzi kitablar uşaqların şüuraltına şiddət və zorakılıq yeridir, xalqımızın milli-mənəvi və əxlaqi dəyərlərini aşılamır. Bu kimi ədəbiyyat nümunələrinə xarici ölkə ədəbiyyatlarında daha çox rast gəlmək mümkündür. Odur ki, uşaqlarımıza kitab alarkən üstünlüyü Azərbaycan ədəbiyyatına, nağıl və dastanlarımıza verməliyik. Bu nümunələr xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərini özündə ehtiva edərək gənc nəslin sağlam ruhda və zəngin mənəviyyatda yetişməsi üçün vacib örnəkdir.

### *Oxunması zəruri olan kitablar və ya mütaliəyə yenidən qayıdış*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" imzaladığı 2017-ci il 28 avqust tarixli Sərəncamla təsdiq edilən "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil olan Azərbaycan və dünya ədəbiyyatının ən gözəl nümunələri yaşından və tutduğu mövqedən asılı olmayaraq, hər kəsin mənəvi zənginliyini artıran, həyata daha geniş pəncərədən baxmağa sövq edən, mədəni ünsiyyətə, məntiqli nitqə kökləyən dəyərli mənbələrdir. Tövsiyə olunan kitablar mədəniyyətimiz, tariximiz, milli kimliyimiz haqqında dolğun məlumat verməklə yanaşı, oxucuların hərtərəfli formalaşmasına müsbət təsir göstərir. Məktəblilər və gənclər arasında siyahıda olan kitabların müzakirələrinin keçirilməsi, oxu günlərinin təşkil olunması, mütaliəyə kütləvi marağın artması bir daha təsdiq etdi ki, Ali Məclis Sədrinin Sərəncamı kitaba, mütaliəyə qayıdış baxımından mühüm əhəmiyyət və dəyər kəsb edir.

*...Mayası layla və nəğmələrlə yoğrulan xalqımız zəngin ədəbiyyat tarixinə və mükəmməl ədəbiyyat nümunələrinə malikdir. Bir çox dünya ədəbiyyatı nümunələrinin qaynağı və ideyası da elə Azərbaycan ədəbiyyatıdır. Bu nümunələrə marağın artırılması, həmçinin Azərbaycan və dünya ədəbiyyatının sanballı nümunələrinin mütaliə olunması, milli-mənəvi dəyərlərimizin gənc nəslə aşılanması üçün oxuyaq, oxumağı təbliğ edək. Çünki kamilləşmək, müdrikləşmək üçün mütaliə günün tələbinə, mənəvi zərurətə çevrilməlidir.*

**Lalə ALLAHVERDİYEVA**
***"Şərqin səhəri" qəzetinin məsul katibi***

## 5 ay ərzində muxtar respublikada 205 elektron imza sertifikatı verilib

Elektron imza elektron məkanda imzalamanı təmin edən və bütün beynəlxalq təhlükəsizlik standartına cavab verən tam təkmil imzalama vasitəsidir. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən informasiya təhlükəsizliyini təmin edən elektron imza muxtar respublikada da uğurla tətbiq edilməkdədir.

Elektron imza sertifikatının tətbiqi və dövlət orqanlarında elektron xidmətlərin göstərilməsinin bir sıra üstünlükləri vardır. Belə ki, vaxta qənaət, məxfilik, rahatlıq, bütünlük, tanınma, işgüzar münasibətlərin və əlaqələrin tamamilə elektron formata keçirilməsini və vətəndaş-hökumət arasında elektron informasiya münasibətlərini təmin edir.

Muxtar respublika üzrə cari ilin 5 ayı ərzində 151-i dövlət qurumu, 19-u hüquqi şəxs, 28-i sahibkar və 7-si vətəndaş olmaqla, ümumilikdə, 205 nəfərə elektron imza sertifikatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.

Elektron imzadan bütün vətəndaşlar, o cümlədən fiziki şəxslər, hüquqi şəxslər və dövlət orqanları istifadə edə bilərlər. Elektron imzanı almaq üçün qanunvericiliklə müəyyən olunmuş sənədlər Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinə təqdim olunmalıdır. Sertifikat əldə etmək üçün ödəniləcək dövlət rüsumu dövlət qurumları üçün 58, hüquqi şəxslər üçün 72, sahibkarlar üçün 36, vətəndaşlar üçün isə 18 manat təşkil edir, istifadə müddəti 3 ildir.

Qeyd edək ki, elektron imza və ondan istifadə qaydaları barədə ətraflı məlumatları *rabite.nmr.az* saytı vasitəsilə əldə etmək olar.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 8 iyul 2022-ci il tarixdə açıq hərraca çıxarılacaq nəqliyyat vasitələri haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq nəqliyyat vasitəsi | Tipi | Buraxılış ili | Sayı (ədədlə) | 1 ədəd nəqliyyat vasitəsinin ilkin satış qiyməti (manatla) | İlkin satış qiymətinin 10 faizi həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|---|---|
| 1. | VAZ-21214 | Minik | 2003 | 1 | 6000.0 | 600 |
| 2. | VAZ-21214 | Minik | 2006 | 1 | 8000.0 | 800 |
| 3. | VAZ-2121 | Minik | 1993 | 1 | 5500.0 | 550 |
| 4. | UAZ-31512 | Minik | 2004 | 2 | 6500.0 | 650 |
| 5. | QAZ-3308 | Yük | 2003 | 27 | 7000.0 | 700 |
| 6. | QAZ-3308 | Yük | 2002 | 1 | 6000.0 | 600 |
| 7. | ZİL-130 | Yük | 1983 | 1 | 5000.0 | 500 |
| 8. | ZİL-131 | AÇ-4.5 su | 1985 | 1 | 7000.0 | 700 |
| 9. | ZİL-131 | AÇ-4.2 su | 1989 | 1 | 8000.0 | 800 |
| 10. | ZİL-131 | AÇ-4.5 su | 1985 | 1 | 7000.0 | 700 |
| 11. | ZİL-131 | TA-6 | 1989 | 1 | 8000.0 | 800 |
| 12. | ZİL-131 | AÇ-4.5 su | 1990 | 1 | 8500.0 | 850 |
| 13. | ZİL-131 | 8 YU 12 | 1988 | 1 | 8000.0 | 800 |
| 14. | ZİL-131 | AD-30 | 1988 | 1 | 8000.0 | 800 |
| 15. | ZİL-131 | Hidrokran | 1987 | 1 | 15000.0 | 1500 |
| 16. | ZİL-131 | Hidrokran | 1985 | 1 | 14000.0 | 1400 |
| 17. | URAL-4320 | AÇ-5.5 ysm | 1986 | 1 | 13000.0 | 1300 |
| 18. | URAL-4320 | Özüboşaldan | 1993 | 1 | 17000.0 | 1700 |
| 19. | Kamaz-4310 | Yük | 1986 | 1 | 25000.0 | 2500 |
| 20. | Kamaz-43101 | Yük | 1985 | 1 | 20000.0 | 2000 |
| 21. | UAZ-31512 | Minik | 1987 | 1 | 5500.0 | 550 |
| 22. | UAZ-31512 | Minik | 1989 | 2 | 5500.0 | 550 |
| 23. | Kamaz-5511 | Yük | 1988 | 1 | 11000.0 | 1100 |
| 24. | Ekskavator EA | Yük | 1978 | 1 | 8000.0 | 800 |
| 25. | BMC PRO-522 | Yük | 2009 | 1 | 33934.0 | 3393.40 |
| 26. | NİSSAN MAXİMA | Minik | 2006 | 1 | 13000.0 | 1300 |
| 27. | NEXİA 2 SONC | Minik | 2009 | 1 | 8000.0 | 800 |
| 28. | VAZ-21217 | Minik | 2004 | 1 | 7000.0 | 700 |
| 29. | Opel Astra | Minik | 2007 | 1 | 9000.0 | 900 |
| 30. | Mıtsubıshı Galant | Minik | 2009 | 1 | 9000.0 | 900 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan nəqliyyat vasitələrinin ilkin satış qiymətinin 10 faiz məbləğində beh mərkəzin xəzinə hesabına 5 iyul 2022-ci il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Naxçıvan şəhəri, Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan nəqliyyat vasitələrinin sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *müvafiq formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 8 iyul 2022-ci il tarixdə saat $11^{00}$-da mərkəzdə keçiriləcəkdir.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

***Əlaqə telefonu: 545-01-38.***

**ŞƏRQ qapısı**
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ceyhun Məmmədov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1500. Sifariş № 561